**Xocalı - sağalması mümkünsüz yara**

O gecə sanki qara rəngə boyanmışdı dünya. Elə bil bir günahsız körpənin köksünə vurulan yaradan qan sıçrayıb kor etmişdi gözlərini, ərşə qalxan nalə səslərindən qulaqları tutulmuşdu. Gecənin zülmət baxışlarından utanaraq sanki ulduzlar da, ay da gizlənmişdi. Təkcə Xocalı oyaq idi o gecə. Özü səhərədək oyaq olsa da, bəxti yatan Xocalı.

O gecə bir şəhərin adını tarixdən silmək üçün hücuma keçmişdi ermənilər. Yaradanın haqq mizanı əyilmişdi o gecə. Zaman-zaman türk millətinə qarşı nifrətinə "torpaq davası" donu geydirən namərd qonşularımızın o gün bütün qəzəbi, kin-küdurəti üzə çıxmışdı. Bəşər tarixində ən amansız müharibələrin də aman verən qanunları olduğu halda o gecə bu ali hisslər vəhşicəsinə tapdandı. Qundaqdakı körpələrə, qocalara, hamilə qadınlara, silahsız və şikəst adamlara amansızcasına divan tutuldu. Yüzlərlə insan al qanına qəltan edildi. Ermənilər insanlıq adına yazılmayan bütün vəhşilikləri köməksiz insanların taleyinə qanlı güllələrlə həkk etdilər. Sanki o gecə körpə naləsindən, ağbirçək ana yalvarışlarından xoşhallanırdı ermənilər. Biçarə adamlar gecənin qaranlığında, güllə, mərmi yağışının dəhşətində ayaqyalın, başıaçıq dağlara, meşələrə qaçırdı. Şəhər alovlanıb yanırdı. Bu qaçaqaç alovunda ana baladan, qardaş bacıdan ayrı düşürdü. Dəhşət və qorxu içində baş götürüb artıq xarabalığa çevrilən doğma yurdlarından üz döndərib gedirdi xocalılar. Vətən dedikləri o müqəddəs torpaq isə erməni qəsbkarlarının ayağı altında tapdanırdı. Yazıq xocalılar əsl faciələrinin qabaqda olduğunu bilmirdilər hələ. Düşmən əlindən qaçmaqla sağ qalmaq, faciədən uzaqlaşmaq istəyirdilər. Sanki nicat yolunu bunda görürdülər.

O gecə Xocalının salnaməsinə bunlar yazıldı: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları SSRİ adlı imperiyanın şovinist rəhbərlərinin tabeliyindəki 4-cü ordunun 23-cü diviziyasının 366-cı alayının köməyi ilə Xocalıya hücuma keçdilər. Şəhər yerlə-yeksan edildi. Xocalının yüzlərlə sakini güllələndi. Əsir götürülən qız-gəlinlər, azyaşlı uşaqlar, qocalar, düşmənə qarşı son anadək qəhrəmanlıqla döyüşən oğullar amansız işgəncələrə məruz qaldılar. Faciədə 840 nəfər şəhid oldu. Onlardan 106 nəfəri qadın, 59 nəfəri 1 yaşından 18 yaşına qədər olan uşaqlar və yeniyetmələr, 70 nəfəri qocalardır. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 230 uşaq isə valideynlərindən birini itirdi. 487 nəfər əlil oldu. 1275 nəfər əsir götürüldü. İtkin düşmüş 150 nəfərin taleyindən isə indiyədək heç bir xəbər yoxdur".

**Cavabsız haray...**

Bu müdhiş tarixdən - Xocalı soyqırımından 18 il ötür. Əsr qədər uzun, an qədər qısa olan bu illərin qərib həsrəti ürəkləri göynədir. Zaman qəm karvanını ağır-ağır çəkib gedir, Xocalı yarası isə köz bağlamır. Tarixin qaranlıqlarından işığa çıxmamış çox sual cavabsız qalır hələ. Qəlbini Xocalı yarası göynədən insanlar 18 ildir ki, bu suallara cavab axtarırlar: "Yer üzündə misli görünməmiş bu faciənin qarşısını almaq mümkün idimi? Qırğının qarşısını almaq üçün dövlət səviyyəsində tədbirlər görülməməsinə səbəb nə idi? Faciənin günahkarları niyə cəzalandırılmadı?" Axı Xocalı 4 ay idi ki, düşmən həmlələrinə igidliklə dözür, özü öz yaralarını bağlayırdı. Mühasirə şəraitində yaşayan xocalılılar nə bu torpağı tərk etməyi düşünür, nə də aramsız hücumlardan qorxub geri çəkilirdilər. Ümidli gözlər isə aylardan bəri yollara dikilmişdi. Xocalılar Bakıdan kömək umur, imdad diləyirdilər. Ölkə rəhbərliyi isə bu harayı qulaqardına vurur: "Darıxmayın, kömək gələcək", "Vertolyot göndərmişik" deyə insanları yalançı vədlərlə aldadırdılar. Xocalılar hər gün aeroporta üz tutur, kömək gözləyir, naümid geri dönürdülər. Bütün Qarabağ torpaqları kimi Xocalı da başlı-başına buraxılmışdı. Bu şəhəri işğaldan qorumaq, insanlarını xilas etmək vacib idi. Təkcə ona görə yox ki, Xocalı 2500-3000 il tarixi olan qədim türk yaşayış məskənidir. Həm də onun üçün ki, şəhər strateji cəhətdən böyük əhəmiyyətə malik idi. Ağdam, Əsgəran, Xankəndi və Şuşanı birləşdirirdi. Bu vacib amil də ölkə rəhbərliyinin mürgüsünü dağıtmırdı. Xocalı döyüşən igidlərin ümidinə qalmışdı.

Xocalı aeroportunun komendantı Əlif Hacıyev, "Xocalı" batalyonunun komandiri, "Mixaylo" təxəllüsü ilə tanınan Tofiq Hüseynov, Bakıdan gələn könüllülər dəstəsinin komandiri Aqil Quliyev və Hikmət Nəzərli kimi oğullar isə son damla qanlarını da ondan əsirgəməyərək

şəhid oldular. Onların qanına boyanmış torpaqlarımızı ayaqlayıb Xocalıya daxil olan rusların ardınca gələn erməni cəlladları xocalılılara amansız divan tutdular.

Azərbaycan xalqı faciədən yalnız iki gün sonra xəbər tutdu. Ölkə rəhbəri Ayaz Mütəllibov soyuqqanlıqla: "Panika yaradıb camaatı çaşdırmayın. Xocalıda cəmi iki adam həlak olub"-deyə bildirdi. Bir neçə gündən sonra Xocalı faciəsi bütün təfsilatı ilə açıqlananda isə hər kəs özünü təmiz çıxarmağa çalışdı. Bəzi rəsmi mənbələr cinayəti gizlətməyə çalışmaqla əslində öz xalqına qarşı daha dəhşətli cinayət etdiklərini fərqinə varmırdılar.

**Tanrı da eşitmədi bu fəryadı**

O gecə Xocalının və xocalıların fəryadı ölkənin rəhbərinə yetişmədiyi kimi, Tanrıya da çatmadı. Çünki o gecə Tanrı çox uzaqdaydı. Sanki o, bu vəhşilikləri görməmək üçün çox-çox uzaqlara çəkilmişdi. Tanrının bu dəhşətlərdən xəbəri yox idi.

Xocalıda vəhşicəsinə divan tutulmuş insanların ağrılı söhbətlərini çox dinləmişəm. O insanların göyə bülənd olan, indisə gözyaşlarına bükülüb ürəklərinə axan fəryadlarını çox eşitmişəm. Faciədən sonra valideynsiz qalmış uşaqlarla, doğmalarını itirmiş adamlarla görüşüb çox dərdləşmişəm. Həmişə də ürək ağrısı ilə təkrar-təkrar əzizlərini tez-tez yuxuda gördüklərini, onların diri olması, yenə bir gün yanlarına qayıdacaqları haqqında əfsus ki, heç zaman gerçəkləşməyəcək arzularını çox eşitmişəm. Ən dəhşətlisi budur ki, o insanlara heç bir sözlə təsəlli vermək mümkün deyil.

...Bakıda Xocalı müsibətinin şahidlərindən Xədicə adlı gözəl-göyçək bir xanım yaşayır. O gecə təsadüf nəticəsində sağ qalmış, don, şaxta vurduğundan iki ayağı da kəsilmiş Xədicənin faciəsi insanı sarsıdır: "Məni ermənilərə əsir düşməkdən anamın qızılları xilas etdi. Xocalı mühasirəyə alınanda hamı yatmışdı. Atəş səslərinə oyanıb ayaqyalın, başıaçıq meşəyə üz tutduq. Lakin burada da erməni faşistlərindən xilas ola bilmədik. Bizi əvvəllər Şuşada və Bakıda yaşamış 2 erməni əsir götürdü. Üç gün meşədə qarın üstündə qaldıq. Anamın bir düyünçə qızılını verib azad olduq, amma anamı xilas edə bilmədik. Onun meyitini meşədə qoyub yola düzəldik. Aclıq, susuzluq, şaxta, qorxu... 16 yaşlı bacım da öldü. Onu da dəfn etməyə macal tapmadıq. Bir gün qəbiristanlıqda gecələdik. Ertəsi gün atam da öldü. Mənim ayaqlarımı isə don vurmuşdu. Min bir əzabla Ağdama çatdıq. Sonra da ayaqlarımı kəsdilər".

İradə Ələsgərova fevralın 25-i gecəsi ermənilərin əlinə düşməmək üçün anası, bacısı və dörd uşaqla evin zirzəmisində gizlənib. Amma evlərinin lap yaxınlığında erməni dilində danışıq eşitdikləri üçün qorxudan qaçıb qonşudakı zirzəmiyə doluşublar. Az keçməmiş zirzəmiyə əli avtomatlı 2 erməni daxil olur. Ermənilər onların bütün pullarını və qızıllarını tutub alırlar. Sonra onları mağazanın yanına gətiriblər. Mağazanın yanında əsir tutulmuş çoxlu adamla birlikdə Xankəndinə aparıblar. 4 gün internat məktəbin binasında saxladıqdan sonra onları Əsgəran rayon milis idarəsinə gətiriblər. Martın 1-də onları ermənilərlə dəyişib Ağdama buraxıblar. İradə məhz Ağdamda başlarına gətirilən faciələrin, gözü qarşısında qırılan qohumlarının dərdini, həmyerlilərinin çəkilməz ağrısının böyüklüyünü başa düşdüyündən acı-acı danışır. Öyrənib ki, qardaşı Murad iki uşağı ilə meşədə donub. Uşaqlardan birinin 4, digərinin 2 yaşı vardı. Hər üçünün meyitini gətirib Ağdamda basdırıblar. Eşidib ki, Muradın bütün qızıl dişlərini ermənilər yarıb çıxarıbmış. Onunçün dəhşətlidir ki, bacısı ərindən - Çingiz Hüseynovdan hələ də bir xəbər yoxdur. Bəziləri onun girovda qaldığını söyləyirlər.

Bax, budur erməni vəhşiliyi... Xədicələrin kəsilən ayaqlarıdır, heç zaman dayanmayan göz yaşlarıdır, qaysaq bağlamayan yaralarıdır. İradələrin əzizləri ilə bağlı gerçəkləşməyəcək ümidləridir, daim ağrıyla, nigarançılıqla çırpınan qəlbləridir.

Bu gün şahid xocalılar sağ qalıb yaşasalar da, "bu, ömür, dolanışıq deyil, cəhənnəm əzabıdır" deyirlər. Xocalılar o dəhşətli günlərdən nifrətlə söz açırlar. Çoxu da qeyzlənərək o faciəli günləri yada salmaq istəmir, söhbətdən qaçır, dərdli-dərdli: "Nə olsun axı, lap danışdım, nə fayda? Bunlar nəyi dəyişəcək?!" - deyirlər. Onları başa düşmək çətin deyil. Çünki Xocalı faciəsi bu insanlara ömürlük dərd, fəlakət gətirib, ürəklərində sağalmaz yaraya dönüb.

**Bu faciəni dünya bildimi?**

Türkün tarixində faciələrlə dolu səhifələr çoxdur. Ancaq inanmıram ki, onların hansısa biri bizi Xocalı soyqırımı qədər yandıra bilər. Çünki bizim hətta məğlubiyyətimizdə də bir igidlik örnəyi olub.

Bu faciənin iştirakçısı olub-olmamağımızdan asılı olmayaraq hamımızın ürəyində Xocalı yarası var. Bu, təkcə torpaq, yurddaş itkisi deyil. Xocalı soyqırımı hər birimizin alınmamış qisasımızdır. Xocalı Xatın, Moabit, Buhenvald, Sonqmi faciəsi kimi dəhşətlidir. Ancaq onlar öz faciələrini dünyaya çatdıra bildilər. Bizim faciəmizdən isə dünya hələ indi xəbər tutur. İndi-indi bir çox ölkədə Xocalı soyqırımı faciəmiz kimi anılır. Faciədən isə 18 il ötür...

**Məhərrəmova Təranə**

**Kaspi. -2010. – 12 yanvar. – S.11.**